Üzeyir Hacıbəyov-120



# VƏTƏN MİLLƏT ORDU

6502

-1730

6502

NOT-MUSIQI
SÖ8951

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Üzeyir Hacıbəyovun ev-muzeyi

# ÜZEYİR HACIBƏYOV

6502

## *VƏTƏNPƏRVƏRLİK MAHNILARI*

Səs və fortepiano üçün

Bakı-2005

NOT-MUSIQI
SÖ8951

Tərtibçi və redaktor
**Sərdar Fərəcov**

**Üzeyir HACIBƏYOV.**
Vətənpərvərlik mahnıları *(Səs və fortepiano üçün)*. "Əbilov, Zeynalov və oğulları" - Bakı - 2005 - 38 səh.

Məcmuə dahi bəstəkar Üzeyir Hacıbəyovun vətənpərvərlik mövzusunda yaratdığı mahnıları əhatə edir. Kitabda ilk dəfə nəşr olunan naməlum mahnılara da yer verilmişdir. 1917-1942-ci illər ərzində yaranmış bu mahnılar bu gün müstəqil Azərbaycanın ordusu üçün, əsgərləri üçün, gənc nəslin mənəvi tərbiyəsi üçün müstəsna əhəmiyyət daşıyır.

Məcmuə xor, solist və müxtəlif heyətlərlə ifa oluna bilər.

**İSBN 5-87459-222-9**

**© Sərdar Fərəcov**
**© «Əbilov, Zeynalov və oğulları», 2005**

# ÖN SÖZ

## Üzeyir Hacıbəyovun mahnıları

Mahnı janrı Üzeyir Hacıbəyovun çoxşaxəli yaradıcılığında mühüm əhəmiyyət kəsb edir. Hələ Qori müəllimlər seminariyasında oxuyarkən xalq mahnılarını iki səsli xor üçün işləyən Ü. Hacıbəyov sonralar Bakıda «Səadət» məktəbində çalışdığı zaman uşaqlar üçün gözəl mahnılar yaratmışdır. Onun mahnıları janr və mövzu baxımından müxtəlifdir. Bu mahnıların içində lirik, təbiəti tərənnüm edən, vətənpərvərlik, uşaqlar üçün bəstələnmiş mahnılara rast gəlirik.

Vətənpərvərlik mahnıları Ü. Hacıbəyovun sevə-sevə müraciət etdiyi və xüsusi diqqət, əhəmiyyət verdiyi janr olmuşdur.

Bu mahnılarda tərənnüm olunan Vətən sevgisi, Millət təəssübü, düşmənə nifrət, qəhrəmanlığa çağırış ən ali insani keyfiyyət kimi təqdim olunur. Bu gün müstəqil Azərbaycanın dövlət Himni kimi səslənən «Azərbaycan» marşı, «Milli marş», «Çırpınırdın Qara dəniz», «Əsgər marşı», «Vətən Ordusu» kimi mahnılar hər dəfə səsləndikcə qəlbimizi riqqətə gətirir, qanımızı coşdurur.

Təəssüflə qeyd olunmalıdır ki, son illər Ü. Hacıbəyovun mahnıları az səslənir və bir çoxu unudulmaq dərəcəsindədir.

Səbəblərdən biri də bu mahnıların çap olunmaması, yeni ifalarda lentə alınmaması və müasir dinləyiciyə layiqincə təbliğ edilməməsidir. Halbuki bu mahnıları vətən övladları məktəbli skamyasında, əsgər formasında bütün həyatı və fəaliyyəti boyu öyrənməli, dillərinin əzbəri etməlidirlər. Çünki bu mahnılar belə sevgiyə layiqdir. Dahi bəstəkarın 120 illik yubileyi ərəfəsində bu mahnılar toplusunu çap edib xalqımızın diqqətinə təqdim etmək istəyimiz də məhz bu ülvi sevginin təzahürüdür.

***Sərdar Fərəcov***

Üzeyir Hacıbəyovun ev-muzeyinin direktoru,bəstəkar

# Milli marş


Maestoso
Piano
f
Vu-ru-lur mey-dan-da sin-ci dəf dü-zü-lün
əs - kər-lər səf-bə-səf ye-ri-yin şövq-lə düş- mən tə-
rəf ye-ri-yin şövq-lə düş-mən tə-rəf, gi-ri-niz




mey-da-na san-ki şir ə-li-niz-də şəm-şir i-lə
tir di-li-niz-də ol-sun bu zi-kir ya Al-
lah ya Al-lah ya Al-lah mə-də-də
yet ya Al-lah ya Al-lah ya Al-









Vurulur meydanda sinc-dəf
Vurulur meydanda sinc-dəf
Düzülün əskərlər səfbəsəf
Yeriyin şövqlə düşmən tərəf / 2/

Giriniz meydana sanki şir
Əlinizdə şəmşir ilə tir
Dilinizdə olsun bu zikr
Ya Allah, ya Allah, (ya Allah) mədədə yet / 2/
Hüvə-kəbir,

Çingizləri, Teymurları,
Gəl yada sal ol ərləri
Kim, ol zaman türk hökmran
Türkə müti nəfsi-cahan
Gör nə ləzzət / 2/
Çəkdi bu millət

# Çırpınırdın Qara dəniz















Çırpınırdın Qara dəniz
Baxıb türkün bayrağına
Ax ölmədən bir görsəydim
Düşə bilsəm ayağına

Sırmalar saç sağ soluna
İncilər düzün yoluna
Fırtınalar dursun yana
Yol ver türkün bayrağına

Türk elindən əsən yellər
Sənə şirin salam söylər
Olsun bütün Qafqaz ellər
Qurban türkün bayrağına

Ayrı düşmüş dost elindən
Yollar var ki, çarpar sinə
Vəfalı türk geldi yenə
Salam türkün bayrağına.

# Əskər marşı









Heç zaman enməz millət ucaldan
Azadlığın üç rəng bayrağı
Düşmənə verməz bir parça torpaq
Enməz cəsur ordunun sancağı

Addımla əskər addımla əskər
Addımlarında şanlı zəfərlər
Sən qəhrəman yurdun əskərisən
Əzminlə açar nurlu Səhər

Var qəlbimizdə bu yurda məhəbbət
İlk sevqimiz, andımızdır Vətən
Düşmənlər etsə bu yurda xəyanət
Atəşlə susdurulacaq həmən

# Səni gözləyir










Günəşin işiği gözlərdə yandı (ey)
Vətənin daş-daği nura boyandı
Borular çalındı hər kəs oyandı
Yürü, əgsər zəfər səni gözləyir

Günəşin çöllərə sarpılmada nur
Ürəklər döyünür sevinjə dönür
Borular səninçin şərqilər oxur
Yürü, əsgər zəfər səni gözləyir

Səslənsin tüfəngin, topun gurlasın
Dağların bağrına atəşlər salsın
Vətən qələbədən ilhamlar alsın
Yürü, əsgər zəfər səni gözəlyir.

# Çağırış






6502
NOT-MUSIQI SÖB...
M.F. Axundov adına Azərbaycan Milli ...


lır. Mərd oğ - lun - la a - zad qı - zın möh-kəm du
rur sər-həd-də; sə-nə on - lar
ke - şik çə-kir hər şə - hər-də hər kənd-də ta-rix bo-
yu ol-ma-mış-dır öl-kə-miz-də bu döv-ran; bu şöh-rə-
f




ti gör-mə-miş-dir A-zər-bay-can bir za-man Şən xalq-la-
rın ca - nı bir-dir mil-yon - la - rın qəl - bi
bir u-ca - lı - rıq hər bir za-man məs - lə - yi - miz
ül - vi - dir məs - lə - yi - miz ül - vi - dir məs - lə - yi -









Yığılsınlar döyüşçülər bizi vətən çağırır;
Düşmən qorxur qüvvəmizdən bağrı onun yarılır.
Mərd oğlunla azad qızın möhkəm durur sərhəddə;
Sənə onlar keşik çəkir hər şəhərdə, hər kənddə

Tarix boyu olmamışdır ölkəmizdə bu dövran;
Bu şöhrəti görməmişdir Azərbaycan bir zaman.
Bu millətin canı birdir milyonların qəlbi bir
Ucalırıq hər bir zaman, məsləkimiz ülvidir.

Bu millətin canı birdir, milyonların qəlbi birdir.
Bəxtəvərsən övladınla azad olmuş şən vətən;
Basılmaz bir qala oldun tarix boyu Sən vətən,
Vətən, Azad vətən, vətən.

# Ananın oğluna nəsihəti
















Bu gün döyüş meydanında qoç kimi sən dayan, oğul!
Bir igidsən adın cıxıb,yazılıb hər yana oğul
Sən iqidlər cərgəsində həmişə gəl sana, oğul!
Doğubdur mərd ana səni, sən də ol mərdana, oğul!
Qəhrəmanlıq adı səndə olsun nişana, ay oğul!

Azərbaycan igidlərin yayılıb dünyaya səsi,
Hər bir dağın sinəsində var bir Koroğlu qalası.
Bu qaniçən düşmənlərin tezcə alınar havası.
Çöllər ona məzar olar, kəsilər murdar nəfəsi.
Al süngünü, sanç gözünə, qoy boyansın qana, oğul!

# Şəfqət bacısı











Gəl ana yurdumun qızı, gəlini,
İndi namus vaxtı, qeyrət dəmidir,
Sən də əsirgəmə kömək əlini,
Hər sözün, söhbətin can məlhəmidir.
Adın şərəflidir sənin, ey qadın,
Dahilər anası çağrılır adın.

Gəl çıxaq cəbhəyə, əmr edir vətən,
Sən də bu meydanda kükrəyib çağla.
Düşmənin gülləsi dəysə sinəmdən,
Mehriban əlinlə yaramı bağla.
Adın şərəflidir sənin, ey qadın,
Dahilər anası çağrılır adın.



# Döyüşçülər marşı










Solo
gar. - ša!
3.Gir-dik mey-da - na mər-di - mər
Hər da - ğa da - şa zə - fər - lər
da - na, düş-mə-nin yur-du batsın qa-na. ca - na,
yaz - dıq Sa - lam a-na-mız A-zər-bay
Xor
A - zər - bay-can! U - ra! U-ra! U - ra! 4.Ya-şa - sın




bö - yük Və-tə - ni - miz! O-nun yo - lun - da
qur-ba - nıq biz. Qoy al bay-raq - lar qalx-sın gö -
yə! Şan-lı ya - şa - sın gənc nəs - li -




Gəl çərgə-çərgə, qatar-qatar,
Qüvvətin də var, qanın da var,
Dağlara qalxan qalsın bir yadigar.
Qoy sənəd qalsın bir yadicar.

Şanlı ordumuz, xoşbəxt yaşa!
Sel tək çoşub gəl daşa-daşa.
Dursun salam doğma vətən,
Alqışlar olsun yar-yoldaşa!

Girdik meydana mərd-mərdana
Düşmənin yurdu batsın qana.
Hər dağa-daşa zəfərlə yazdıq
Salam anamız Azərbaycan
Azərbaycan! Ura! Ura! Ura!

Yaşasın böyük Vətənimiz!
Onun yolunda qurbanıq biz.
Qoy al bayraqlar qalsın göyə!
Şanlı yaşasın gənc nəslimiz.
Ura! Ura! Ura!



## Vətən ordusu






Qorxub çəkinmərik ölmdən, qandan,
Çıxdıq illər boyu çox imtahandan.
Bombalar yağsa da hər gün hər yandan,
Qorxub cəkinmərik ölümdən, qandan.
Dağlara səs salır hücüm borusu,
Haydı, marş irəli, Vətən ordusu.

Cərgəmizi pozmaz nə dərə, nə düz,
Döyüşə hazırdır qızıl süngümüz.
Hər gün döyüşlərdə vurduq birə-yüz.
Döyüşə hazırdır qızıl süngümüz.
Dağlara səs salır hüçüm borusu,
Haydı, marş irəli, Vətən ordusu.

Yaşa, qızıl əsgər, yaşa, min yaşa,
Atdığın güllələr cıxmasın boşa.
Yaşa, qızıl əsgər, yaşa, min yaşa,
Hücüm çək düşmənə, məhv et birbaşa.
Dağlara səs salır hücum borusu,
Haydı, marş irəli, Vətən ordusu.

# Yaxşı yol



**Moderato**






Dörd qardaşıq, qurban olaq ana yurda dördümüz,
Vardır igid sərkərdəmiz yox ürəkdə dərdimiz,
Qoymaz tapdansın vətəni qoçağımız, mərdimiz.
Düşmənlərə vermə aman, get qardaşım, yaxşı yol!
Yurdarını eylə viran, get qardaşım, yaxşı yol!

Qədrini bil, toxunmasın sənə bir yad gülləsi,
Sən lazımsan bu ellərə, ey vətənin haqq səsi,
Var səsinlə qəlbdən oxu qalibiyyət nəğməsi.
Düşmənlərə vermə aman, get qardaşım, yaxşı yol!
Yurdarını eylə viran, get qardaşım, yaxşı yol!

Poladdan bir səngər kimi sinəni gər hücumda,
Düşmənləri yuvasından et dərbədər hücumda,
Azdır yenə min düşməni qırsan əgər hücümda.
Düşmənlərə vermə aman, get qardaşım, yaxşı yol!
Yurdarını eylə viran, get qardaşım, yaxşı yol!

## *Üzeyir Hacıbəyovun mahnıları haqqında qısa məlumatlar*

**1.«Milli marş» -** İlk variantı 1917-ci ildə yazılmışdır. 1919-cu ildə yenidən işlənib o zamankı hökumət tərəfindən dövlət himni üçün elan olunan müsabiqəyə təqdim edilmiş, birincilik qazanmışdır. (Bax: 246 saylı «Azərbaycan» qəzeti, 14 noyabr 1919-cu il) 1920-ci il aprel çevrilişindən sonra ifa olunmamış, notları itirilmişdir. Bir səsli halda türk musiqişünası Etem Ündörün «Türk marşları» kitabında (1996) çap olunmuşdur. 1991-ci ildə Milli Marş bəstəkar Sərdar Fərəcov tərəfindən yenidən redaktə edilmiş, dörd səsli xor və simfonik orkestr üçün işlənmişdir.
Milli Marşın sözləri də Ü.Hacıbəyova məxsusdur.

**2.«Çırpınırdın Qara dəniz» -** Ü.Hacıbəyovun 1919-cu ildə bəstələdiyi ehtimal olunur. Mahnının sözləri Əhməd Cavadındır. 1920-90-cı illərdə ifası Azərbaycanda yasaq olunmuşdur. Rəsmi 1992-ci ilin martında Ə.Cavadın yubiley gecəsində səslənmişdir. Təqdim olunan not yazısı S.Fərəcovun redaksiyasında verilir.

**3.«Əsgər marşı» -** Ü.Hacıbəyovun 30-cu illərin əvvəllərində yazdığı marşdır. Marşın sözlərini M.S.Ordubadi yazmışdır. Sözlərdə bəzi redaktələr edilmişdir.

**4. «Səni gözləyir» -** 1931-ci ildə şair Hüseyn Natiqin sözlərinə bəstələnib. İlk ifaçısı Bülbül olmuşdur. Ədəbi mətnində bəzi redaktələr edilmişdir.

**5. «Çağırış» -** 1941-ci ildə Surə Əliyevanın sözlərinə bəstələnmişdir. Bu mahnının ilkin variantı 30-cu illərə aid olaraq «Mazut» adlanırdı. Bu nəşrdə ədəbi mətndə bəzi redaktələr edilib.

**6. «Ananın oğluna nəsihəti» -** Ü.Hacıbəyovun II Dünya Müharibəsi illərində bəstələdiyi mahnıdır. Sözləri aşıq Mirzə Bayramovundur. Sözlərdə bəzi redaktələr edilib.

**7.«Şəfqət bacısı» -** Ü.Hacıbəyovun II Dünya Müharibəsi illərində yazılıb. Sözləri S.Vurğunundur.

**8. «Döyüşçülər marşı» -** II Dünya Müharibəsi illərində yazılıb (1942). Sözləri S.Vurğunundur.

**9.«Vətən Ordusu» -** S.Vurğunun sözlərinə 1942-ci ildə yazılmış mahnıdır.

**10. «Yaxşı yol» -** S.Rüstəmin sözlərinə bəstələnmişdir. Sözlərdə bəzi redaktələr edilmişdir.

# Mündəricat:

1. Ön söz.................................................................. səh. 3
2. Milli marş.............................................................. səh. 4
3. Çırpınırdın Qara dəniz............................................ səh. 8
4. Əsgər marşı ........................................................... səh. 12
5. Səni gözləyir........................................................... səh. 14
6. Çağırış.................................................................... səh. 17
7. Ananın oğluna nəsihəti............................................ səh. 22
8. Şəfqət bacısı .......................................................... səh. 26
9. Döyüşçülər marşı .................................................... səh. 29
10. Vətən ordusu ......................................................... səh. 33
11. Yaxşı yol ................................................................ səh. 35
12. Qısa məlumat.......................................................... səh. 37

**Üzeyir Hacıbəyov – 120**

## Vətən, millət, ordu

***Vətənpərvərlik mahnıları***

**Səs və fortepiano üçün**

Tərtibçi və redaktor: **Sərdar Fərəcov**
Kompyuter not qrafikası: **Nərminə Kərimova, Firudin Allahverdi**
Korrektor və maket: **Yavər Nemətli**

Yığılmağa verilib 10.08.2005. Çapa imzalanıb 02.09.2005.
Format 60x90 ⅛. Ofset kağızı. Ofset çap üsulu.
Həcmi 4,75 f.ç.v. Tiraj 500 nüsxə. Sifariş 2124.

"Əbilov, Zeynalov və oğulları"
Nəşriyyat-Poliqrafiya Evinin mətbəəsi.
Bakı ş., M.İbrahimov 43, tel.: 497-36-23